# Heydər Əliyev irsi Azərbaycan gəncliyinin yeganə istinadgahıdır

Bakı Şəhər İcra Hakimiyyətinin iclas zalında ümummilli liderin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Heydər Əliyev Müstəqil Azərbaycanın memarıdır" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.



Əvvəl ulu öndərin gənclərə qayğısından bəhs edən videoçarx nümayiş olunub. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov qonaqları və iştirakçıları salamlayaraq Azərbaycanın inkişafı və bütün dünyada tanınmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən, eləcə də onun gənclərə göstərdiyi xüsusi diqqət və qayğıdan danışıb. Bildirib ki, ölkədə həyata keçirilən dövlət gənclər siyasəti dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlayıb.

Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayev ulu öndər tərəfindən bünövrəsi qoyulan gənclər siyasətinin uğurlarından danışıb. Bildirib ki, gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri var. Hazırda bu sahədə dövlət başçısı İlham Əliyevin apardığı siyasətin nəticəsi olaraq bu gün Azərbaycan gəncliyi öz intellektual, kreativ və mənəvi-ideoloji yetkinliyi ilə dünya gəncləri arasında qibtə olunacaq nüfuz qazanıb. Buna görə də gənclər ulu öndərin həyat yolu və fəaliyyətini dərindən öyrənməlidirlər. Bu işlərdə bu gün keçirilən elmi-praktik konfrans mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini İntiqam Babayev bildirib ki, ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Məhz bu dahi şəxsiyyətin 26 iyul 1994-cü il tarixli fərmanı ilə ölkəmizdə Gənclər və İdman Nazirliyi yaradılıb, daha sonra 2 fevral - Azərbaycan Gəncləri Günü elan edilib. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin dövlət qulluğunda məsul vəzifələrdə iştirakını təmin etmək, aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə ölkə rəhbərliyi bütün lazımi tədbirləri həyata keçirir.

Konfransın sonunda tədbirdə çıxış edən və müxtəlif sahələr üzrə məruzələr hazırlamış digər gənclərin işlərinin kitab şəklində çap olunması qərara alınmışdır.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2019.-2 may.- S.6.